# Ehtiyatda olan kapitan Əhəd İsmayılovun döyüş

**(Əvvəli qəzetimizin 7 və 15 aprel tarixli saylarında).**

Kəlbəcərin kəndləri, strateji yüksəklikləri bir-birinin ardınca ordumuz tərəfindən azad edilirdi. Bu əməliyyatlarda ordumuzda əsgər və zabit kimi xidmət edən, könüllü olaraq döyüşə gələn kəlbəcərlilər çox böyük yardım göstərirdilər. Bu yerlərə yaxşı bələd olduqlarından ermənilərə gözlənilməz yerlərdən zərbələrin vurulmasında onların rolu böyükdü. Doğma yerlənin həsrəti kəlbəcərlilərə yeni güc qüvvə verir, igidliklə döyüşür, düşmən arxasına keçərək onlara ciddi itkilər verirdilər. Burada hamı bir nəfər kimi doğma torpqlarımızın düşmən tardağından azad edilməsi uğrunda böyük ruh yüksəkliyilə vuruşurdu. Nəticədə milli ordumuz 1994-cü ilin qışında çox sərt keçən hava şəraitinə baxmayaraq qısa mülddətdə Kəlbəcər rayonunun Zallar, Yanşaq, Qasım binəsi, Qamışlı, Susurluq, Çəpli, Bozlu, Təkə qayası, Seyidlər, İlyaslar, Lev, Dəmirçi damı, Qanlı kəndlərini düşməndən azad etdi.

Fevralın 7-də bizim taburla, birinci tabura mühüm bir əməliyyatı həyata keçirmək əmri verildi. Biz Vardenis istiqamətinldə hərəkət edərək Zod yolunu bağlamalıydıq. Həmin gün tabur komandiri əvəzi baş leytenant Feruz Alışovun, qərərgah rəisi kapitan Xalıd Hümbətovun və bölük komandirlərinin və mənim iştirakımla növbəti əməliyyatın planını hazırladıq. Taburumuzun yarısı fəal döyüşə atılmalı, bir hissəsi isə ehtiyatda qalmalı idi. Tabur komandiri və mən döyüşə birinci başlayan hissədə birlikdə hərəkət etməli idik.

... Xatirələr məni bir neçə ay əvvələ 1993-cü ilin noyabrına aparır. Biz Gəncədə tabur komandiri Feruz Alışovun toy məclisində iştirak edirdik. Bu, bizim xidmət etdiyimiz dövrdə birlikdə iştirak etdiyimiz ilk və son toy məclisi oldu.

...Saat 18-də Lev kəndindən hərəkətə başladıq. Yenə də qarlı-boranlı, kecilməz dağ yamacları ilə irəliləyirdik. Göyçə mahalına doğru, sərhədlərimizə doğru irəliləyirdik. Gecə saat 3-də biz kəlbəcərlilərin «İctimai» dedikləri yerin yaxınlığındakı yüksəkliyə çatdıq. Burada bir neçə gün əvvəl erməni postu yerləşirdi. Onlar qaçarkən hava hücumundan müdafiə qurğusunu apara bilməmişdilər. Səhəri gün tabur komandiri əvəzi Feruz Alışov 6 nəfərlik dəstə ilə mənə bu yüksəklikdə qalmağı əmr etdi. Digər yoldaşlarım isə irəliyə doğru hərəkət etdilər. Çox təəssüf ki, mənim uzun müddətdən bəri çiyin-çiyinə vuruşduğum zabit yoldaşlarım Feruz Alışov, Xalid Hümbətov və digər 10 nəfər zabit və əsgər qar üççünü altında qaldılar. Ermənilərə qan udduran igid döyüşçülərimiz təbiətin şıltaqlığının qurbanı oldular. Xidmət etdiyim dövrdə taburumuzda 1 nəfər də olsun yaralı və ya şəhidin düşmən tərəfdə qalmasına imkan verməmişdik. Ancaq 12 nəfər döyüş yoldaşımızı güclü qar uçqunun ağuşundan qurtara bilmədik. Yenə komandir Feruz Alışovun ötən ilin noyabrında keçirilən toyunu, valideynlərin, dostlarının üzərlərindəki sevinci xatırladıram. Bu gün isə... Allah rəhmət eləsin Vətənin igid oğlu, ogulları.

Kəlbəcər istiqamətində milli ordumuzun böyük qələbəsi mümkün idi. Ancaq, dünya güclərinin Azərbaycana göstərdiyi güclü təzyiq nəticəsində bu əməliyyatı axıra qədər davam etdirə bilmədik. Digər tərəfdən Ermənilər xarici havadarlarının maliyyə, silah, canlı qüvvə yardımı ilə Ağdam, Beyləqan, Füzuli istiqamətində güclü hücuma keçmişdilər. Bu, Azərbaycanın yeni ərazilərinin işğalına səbəb ola bilərdi. Ona görə də briqadamıza Kəlbəçərdən çəkilərək həmin istiqamətdə düşmənin qarşısını almaq əmri verildi.

**(Ardı var).**

# Tarixi gün qeyd olundu

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi hər zaman olduğu kimi əlamətdar və tarixi günləri təntənəli surətdə qeyd etməkdədir. Muzeyimizdə Beynəlxalq Mədəniyyət Günü də qeyd edildi. 15 aprel 1935-ci ildən tarixə yazılan bu gün hər bir inkişaf etmiş dövlətlərdə qeyd edilməkdədir. Bildiyimiz kimi hər bir xalqın özünəməxsus mədəniyyəti vardır. Bu mədəniyyətlər içərisində Azərbaycan mədəniyyətinin çoxşaxəliliyi, zənginliyi, müxtəlifliyi hər zaman diqqət çəkir. Tədbirdə cənab Prezidentimiz İlham Əliyevin 2016-cı ili Multikulturalizm ili elan etməsi və Azərbaycanın həqiqətən də tarixən multikultural dövlət olması haqqında geniş mövzuda söhbətlər aparılmışdır.

Sonda tədbir iştirakçıları ekspozisiya ilə tanış oldular. Ekspozisiyada "Mədəniyyətimiz dünən və bu gün adlı" geniş güşədə uzun illər Qəbələdə mədəniyyət sahəsində çalışan həmyerlilərimiz haqqında dəyərli məlumatlar, tarixi yaşadan fotolar nümayiş etdirildi.

**İlhamə Seyidova.**

# Bakıda ilk dəfə nüvə təbabəti üzrə simpozium keçirildi

Ötən həftə Bakıda ilk dəfə Azərbaycan Nüvə Təbabəti Simpoziumu keçirildi. Azərbaycanın tibb ictimaiyyəti nümayəndələrinin, Beynəlxalq Atom Enerjisi Agentliyi (BAEA) rəsmilərinin iştirak etdikləri simpozium Bakıda yeni açılan Nuvə Təbabəti Mərkəzi haqqında vidioçarxın nümayişi ilə başlayıb.

Tədbirdə çıxış edən Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyev xərçəng, kardioloji və nevroloji xəstəliklərin erkən aşkarlanmasında çox böyük əhəmiyyət kəsb edən Nüvə Təbabəti Mərkəzinin yaradılmasında BAEA-nın xüsusi rolu olduğunu qeyd edib. C. Əliyev son illərdə Milli Onkologiya Mərkəzində xərçəng xəstəliklərinin diaqnostikası üçün hər cür şərait yaradıldığını bildirmiş və bu nəcib işdə həmişə əhalinin sağlamlığını düşünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xidmətlərini də diqqətə çatdırmışdır.

Simpozium çıxışlardan sonra işini sessiyalarda davam etdirib. Sessiyalarda nüvə təbabətinə dair yerli və xarici mütəxəssislərin məruzələri dinlənilib, müzakirələr aparılıb.

# Ağıl və məhəbbət haqqında deyimlər

✦Üç şey ağlın kamilliyinə dəlalət edir: dilinə malik olmaq, zəmanəsini tanımaq, öz ləyaqətini qorumaq.

✦Ən gözəl nemət ağıl, ən böyük bədbəxtlik isə nadanlıqdır.

✦Ağıllı öz qərarının əsiri olmaz.

✦Ağıllı zəhmətinə bel bağlar, ağılsız ümidinə.

✦Ağıllının bir günü sarsağın bütün həyatına dəyər.

✦Nadanlar qarşısında ağlını nümyiş etdirmə.

✦Ağıllı öz qarnının əsiri olmaz.

✦Hər şey çox olduqda ucuz olar, ancaq ağıldan başqa.

**Ərəb atalar sözləri.**

✦Ağıl olan yerdə şərəf də olar.

✦Başında ağıl az olanın evində qəmi çox olar.

**Əfqan aitalar sözləri.**

✦Ağıllı o kəsdir ki, heç bir hiyləyə aldanmaz.

**İran-Kəlkük atalar sözü.**

✦Gücsüz ağıl biclikdir, ağılsız güc giclikdir.

**İran aforizmi.**

✦Ağıl qızıl tacdır, hər başda olmaz.

Səfeh adamın gülməyindən ağıllı adamın ağlamağı yaxşıdır.

**Kürd atalar sözləri.**

✦Məhəbbət—yaxşı olan hər şeyin yaradıcısıdır. O, ülviləşdirir, gücləndirir, hərarətli və parlaq edir.

**F. Dijerzinski.**

✦Məhəbbət həyatın böyük bəzəyidir. O, təbiəti çiçəklənməyə, rəngdən-rəngə düşməyə, insanı gözəl mahnılar oxumağa, qəşəng rəqslər etməyə məcbur edir.

**A. Lunaçarski.**

✦Ailə həyatı zamanı baş verən kiçik anlaşılmazlıqları yalnız güclü məhəbbət ram edə bilər.

**T. Drayzer.**

**Topladı: N. ATAKİŞİYEV.**

# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 aprel 2002-ci il tarixli 03 saylı qərarla Zarağan kənd sakini **Məmmədov Ağabala Abdulla oğlunun və ailə üzvlərinin** adına verilmiş JN-457C nömrəli (kodu 40608018) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Dövlət İctimai Yaşayış Fondu üzrə binada yaşayış-tikinti kooperativləri fondu tərəfindən 16 sentyabr 1995-ci il tarixdə 173 №-li inventar nömrəsi ilə **Süleymanov Ağakərim Qədir oğlunun** adına verilmiş Zarağan kəndindəki **yaşayış evinin texniki pasportu** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Dövlət İslahat Komissiyası tərəfindən 26 may 1998-ci il tarixdə 10 saylı qərarla Kürd kənd sakini **Qurbanova Maya Xəlil qızının** adına verilmiş JN-141 F nömrəli (kodu 40610018) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Dövlət Natariat kontoru tərəfindən 15 fevral 2006-cı il tarixdə 4 ə-0/812 nömrəli alqı-satqı müqaviləsi ilə (Dövlət İslahat Komissiyasının aktı JN: 409, kodu 40610018)Kürd kənd sakini **Qurbanova Maya Xəlil qızına və ailə üzvlərinin** adına verilmiş **alqı-satqı müqaviləsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 7 noyabr 1997-ci il tarixdə 19 saylı qərarla Böyük Əmili kənd sakini **Əzizov Emin Bəhərcin oğlunun və ailə üzvlərinin** adına verilmiş JN-165 F nömrəli (kodu 40604028) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ şəhər sakini **Cəfərov Vüqar Əjdər oğluna** Qəbələ Rayon Hərbi Komissarlığı tərəfindən verilmiş **hərbi bilet** itdiyi üçün etibrsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin baş həkimi Ceyhun Əhmədov və kollektivi iş yoldaşları **Hikmət Mikayılova,** atası

**İSMAYIL MİKAYILOVUN**

vəfatı ilə əlaqədar dərin hüznldə başsağlığı verirlər.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi:
N. R. Atakişiyev.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2100.
Oxucu məktubları geri qaytarılmır.